# XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI ƏDƏBİ MÜHİTİNDƏ XALQI BİRLƏŞDİRMƏK İDEYALARI

Giriş:XIX əsrin sonunda, XX əsrin əvvəllərində bir sıra aktual məsələlər aydın və qabarıq surətdə özünü hiss etdirməkdə idi. Rus çarı Aleksandrın 1870-ci ildə imzaladığı torpaq mülkiyyəti sənədinə əsasən Bakıda neftli torpaqların sahibkarlara satılması hər şeyi kökündən dəyişmişdi. 1870-ci illərin sonunda isə Bakıya, əvvəlcə Bakı-Tiflis, sonra Bakı-Moskva, Bakı-Peterburq, Bakı-Kiyev dəmiryollarının çəkilməsi Bakı şəhərini bir qaynar qazana bənzətməyə başlamışdı, belə ki, bura gələnlərin sayı əvvəlkindən qat-qat artıq idi, hər gün yeni-yeni pasajlar, lokantalar, otellər, dükanlar tikilir, parklar salınır, geniş meydanlar açılırdı. Təbii ki, belə bir zamanda şeir də dövrə uyğun addımlar atmalı idi. Şairlər yeni-ideya estetik keyfiyyətlər, üslub-janr axtarışları ilə şeiri başqa şəkilə salmağa, zamanın axarı ilə uyğunlaşdırmağa başladılar. Təbii ki, bu klassik ənənəyə necə deyərlər xəyanətydən irəli gəlmirdi, çünki şairlər öz yaradıcılığının kökünü klassik ənənənin üslub-janrları ilə qurmuşdular, lakin artıq qəzəl də, qəsidə də, məsnəvi də əvvəl barəsində düşünülməyən belə bir sahəyə, yəni vətəndə baş verən canlanmaya, ağlasızmaz dərəcədə inkişafa ədəbi təzələmə, navatorcasına yanaşmağa başlayaraq o vaxtın müasirlik nöqteyi-nəzətrilə əsərlər meydana gətirməyə başladılar.

Yaxşı şeir xalqı maarifləndirmək üçün ən güclü vasitədir. Çünki şeir rəvan, axıcıdırsa, dərin mənalarla, canlı mənzərələrlə əhatə olunarsa oxucunun dərhal yaddaşına həkk olur, eyni zamanda ruhuna, psixologiyasına müsbət təsirini göstərir və bununla yanaşı onu maarifləndirir.

Bu prosesdə, yəni öncə XIX əsrin sonlarında Azərbaycanın hər yerində mükəmməl biliyə, savada malik olan şairlərimiz xalqın səadətini, firavanlığını elmdə, savadda, təhsil almağda görürdü. Məsələn, Bakı ədəbi mühitinin çox görkəmli şairi Mirzə Əbdülxalıq Yusif buna rəğmən yazırdı:

Yox imiş hiç tərəfdə sifəti-elmi kəmal,
Nə ki, varelmi-kəmal, aləmi-ürfanda imiş.
[7.,s.111]

Beləliklə yeni ideya və fikirlərlə şeir tədricən dəyişir, obrazlar aləmi yeniləşir, hadisələrin təsiri ilə bədii düşüncə tərzi başqa istiqamətə yönəlir, novatorluq təmayülü güclənir, bu təmayül yalnız ideya və mündəricə sahəsində qalmayıb, bədii forma, üslub və sənətkarlıq sahəsində də özünü qabarıq şəkildə hiss etdirirdi.

Məsələ burasında idi ki, bazar iqtisadiyyatının güclənməsi ilə güclü inkişaf baş verməklə yanaşı, Azərbaycan xalqının düşmənlərinin də sayı artmaqda idi. Bakıdakı sənayenin də inkişafı ilə bağlı İrandan, Rusiyadan, Tiflisdən və başqa yerlərdən Bakı şəhərinə gələn, burda özlərinə münasib iş taparaq bir müddətdən sonra mənzil alıb məskunlaşan ermənilər Azərbaycan-türk xalqının azərbaycanlı xeyriyyəçilərinin maddi-mənəvi dəstəyilə maariflənməsinə, savadlanmasına, təhsil almasına dözə bilmirdilər. Mənəviyyatı təmiz olmayan bir erməni, bir azərbaycanlı-türkl uşağının gözəl məktəbli geyimində, bahalı çəkmələrdə, əlində maral dərisindən məktəb çantası, çantanın içində dərsliklər, müsəlman xeyriyyəçilər tərəfindən inşa edilmiş rüşdiyyə məktəbinə gedərkən görəndə bağrı çatlamağa gəlir, dilini-dodağını çeynəyirdi və əgər Bakı qoçularından qorxmasaydı şübhəsiz ki, 12-13 yaşlı cocuğun üstünə hucum edib onu parçalayardı.

Artıq bütün dünyaya məlumdur ki, ermənilər zatən riyakar, paxıl, xəbis, məkrli və olduqca qəddar bir tayfadır. Tarixdən də məlumdur ki, onlar Anadolu türklərinin, eyni zamanda Azərbaycan türklərinin kökünü kəsmək xülyası ilə yaşayırlar. Onlar bu xülyanı həyata keçirməkdən ötrü 1890-cı ildə Tiflisdə "Sosial-demokrat partiyası" adı ilə "daşnak-sutyun" partiyası yaratdılar. Bu partiyanın proqramının ilk bəndində belə yazılmışdı; "Biz böyük Ermənistan yaratmaqdan ötrü hər cür vasitəyə, üsula əl atıb ilk öncə türklərin nəslini yer üzündən kəsəcəyik".

Ermənilər Şuşada və Bakıda başqa yerlərə nisbətən çoxluq təşkil edirdilər. Şuşaya onları XIX əsrin əvvəllərində rus çarının göstərişi ilə İrandan və Anadolunun Van vilayətindən köçürmüşdülər. Bakıya isə yuxarıda deyildiyi kimi iş dalınca gəlmiş və burda məskunlaşmışdılar.

Bunu da qeyd etmək lazımdır ki, ermənilərin rəzilliyini, alçaqlığını ilk öncə Şuşada "Məclisi-fərəmuşan" ədəbi məclisi yaratmış Mir Möhsün Nəvvab hiss eləmişdi və bu barədə bir neçə şeir də yazmışdı. Şuşa şəhərində bəzi mollaların erməni məşuqələri var idi və Mir Möhsün Nəvvab tamahkar və saxtakar mollaları satira atəşinə tutarkən onların özlərindən qat-qat betər, həm də əxlaqsız məşuqələrini də şeir dili ilə qamçılayırdı:

Elə ki, səba küləyi əsir, molla belə səslənir,
Ey mədədən ibarət olan mollanın övrəti,
Oyan, qulaq ver ey dğa, halva yemək üçün.
[5.,s.676]

Bakı şairləri də təbii ki, ermənilərin riyakarlığlarını anlamışdılar və bunu bir sıra şeirlərində əks etdirirdilər. Lakin onların yaradıcılığlarının qaynadadığı bir dövrdə, yəni XIX əsrin sonlarında hamının bildiyi kimi Azərbaycan dilində qəzet-jurnalların fəaliyyət göstərməsinə çar höküməti icazə vermirdi. Əlbəttə, Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə fəaliyyət göstərən "Kaspi" qəzetində bu şeirləri dərc eləmək olardı, lakin onlar hökmən rus dilinə tərcümə olunmalı idilər ki, bu da şeirin effektinin tamamilə itməsinə gətirib çıxara bilərdi. Çünki Puşkinin, Lermantovun şeirlərini rus dilindən dilimizə mükəmməl şəkildə çevirən Abbas Səhhət Bakıda yaşamırdı. Bu səbəbdən də Bakı şairləri yalnız XX əsrdə, daha doğrusu 1906-cı ildə yenə də Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə Azərbaycan dilində "Həyat" qəzeti fəaliyyətə başlayandan və bundan sonra onlarla qəzet-jurnal dilimizdə dərc ediləndən sonra həmin şeirlər dövri mətbuatda dərc edilməyə başladı.

XX əsrin əvvəllərində qabaqcıl ziyalılarımızın mətbuatdakı çıxışları nə qədər güclü olsa da, xalqın əksəriyyəti savadsız olduğu üçün dostları ilə düşmənlərini tanımaqda, ağla-qaranı seçməkdə çətinlik çəkir, bəzən ətraflarında baş verən hadisələr haqqında düzgün təsəvvürə gələ bilmirdilər. Lakin xalq arasında sevilən, məhşur bir şairin baş verən hadisələr haqqında və bu hadisələrin hansı səbəbdən baş verdiyi, onların səbəbləri haqqında düzgün təsəvvür oyatmaqdan ötrü yeni yazdığı şeiri, hətta oxuyub yazmağı bacarmayan insanın gözünü açır, ona ağıqaradan, dostu-düşməndən seçməyi öyrədir, bir sözlə onu maarifləndirirdi. Həmin dövrlərdə tək Bakı ədəbi mlühitinin deyil, Azərbayctanın bütün bölgələrində toplanan ədəbi məclislərin iştirakçılarının qarşılarına qoyduqları məqsəd başda Mövlanə Füzuli olmaqla sələflərinin ənənələrini davam etdirməklə yanaşı xalqa gerçəkləri, həqiqətləri anlatmaq, onu riyakar düşmənlərin fellərindən xilas olmaq üçün ayıq olmağa çağırmaq, eyni zamanda xalqı hürriyyətə, istiqlala, azadlığa səsləmək idi. Təbii ki, xalqının gələcəyini hürr görmək üçün İslam və türk bayrağı altında birləşmək və min ildən artıqdır ki, İslam ehkamları, islam əxlaqı ilə formalaşan, bəşəriyyətin hidayət qaynağı müqəddəs qurani-Kərimin mübarək ayələri ilə ən yüksək ədəb-ərkan qayadalarını milli dəyərlərinə çevirən bir xalqın məhz İslamın dinin qanunlarına dayanan türkçülük ideyası ilə köklənməsi çox vacib idi. Çünki yadellilərin müstəmləkəsi olmaqdan, min illər boyu bu torpağın sakinləri ola-ola ana torpağın qouyunda kafir bayrağı altında gəzib-dolaşmaqdan qurtulmaq üçün xalqı islamçılıq, türkçülük prinsipləri əsasında maarifləndirmək lazım idi ki, o dövrün Bakı şairlərinin qarşısında bu dururdu. Bu da öz növbəsində onların spesifik xüsusiyyətləri ilə, daha doğrusu klassik ənənələri saxlamaqla yanaşı dövrün nəbzini tutaraq haqq ilə nahaqı ayıran mükəmməl əsərlər meydana gətirməyə başladılar.

Türkçülük, islamçılıq ideyaları ilə dövri mətbuatda müntəzəm olaraq çıxışlar eləyən Əbdülxalıq Cənnəti xalqın nicatını, hürriyyətə qovuşmağını torpağı, vətəni sevməkdə, göz bəbəyi kimi qorumaqda görür, torpaq satanlara bədii ifadə vasitələrindən olan"nifrin"lə nifrin yağdırırdı:

Bu şivəni fəryadı əbəs qılmayır üşşaq,
Torpaq satanın çeşminə olsun qara torpaq!
Ey səcdə qılan xakə, nədir bu hərəkatın,
İman ki, yoxun, başına dəysin bu səlatın.
Ey Türk! Vətən tərki olar qəti-həyatın,
Məhməl olur ol dəm hərəkatü səkənatın,
Buirdir vətənin, getsə həyat ilə məmatın,
Tələin oxuyur Cənnəti, hənqami-vəfatın.
Bu şivənii fyəryadı əbəs qılmayır üşşaq,
Torpaq satanın çeşminə olsun qara torpaq! [4]

1876-cı ildə Bakının Nardaran kəndində anadan olmuş, Bakı şairlərinin tədqiqatçısı Sona Xəyalın dili ilə desək, şeirlərində türkçülük və islamçılıq ideyalarını təbliğ edən, millətin öz kökünü, soyunu dərk etməsi, öz milli varlığını qoruması üçün şuurlarda dirçəliş, milli oyanış yaradan şairlərdən biri, "Məcməüş-şüəra"nın öndə gedən üzvülərindən biri Hacəli Pərişan "Millətə xitab" şeirində əsarətdə yaşamağın nöqsanlarını göstərək xalqı cəhalətdən oyanmağa, qəflət yuxusundan ayılmağa, İslam hümmətinə xor baxanları susduurmaqdan ötrü, elm oxumağı, təhsil almağı tövsiyə edir:

Günümüz döndü cəhalətdə əzizan, şamə,
Nə zaman bəs düşəcəkdir işimiz əncamə?
Kami-dil hasil edib elmilə hər hbir millət,
Nə olur, elm oxuyub biz də yerişək kamə.
Yox əgər bizdə hünər kim, eləyək kəsbi-ülüm,
Gər hünər varsa da bilməm, nədi bu həngamə.
Gəl edək hümməti qeyrət, gəl edək üxviyyət,
Bəsdi tən eylədilər tayifeyi-İslamə.
Nə rəvadır, bu qədər tən eşidə milləti-zar,
Nə rəvadır hədəf olsunlar dəmi-əshamə.
Biz deyildikmi çəkərdi bizə aləm həsrət,
Biz deyildikmi gəlirdi hamı istizamə.
Məsnəvilər ola hər millətə aləmdə dəlil,
Ey Pərişan, yetər ol millət işi itmamə.
[3.,s.11]

Əlyazmalar İnsitutunda Fraqment-795 şifri altında şifri altında Ələbbas Müznibin əlyazmaları saxlanır. Hacıəli Pərişanın əksəriyyəti bu əlyazmalar arasındadır. Bu əlyazmalarda "Məcməüş-Şüəra"nın başqa bir iştirakçısı Mirzə Mikayıl Seydi haqqında geniş məqalə və şairin müxtəlif mətbuat orqanlarından toplanmış şeirləri vardır.

Mikayıl Seydi dövrünün əksər şairləri kimi xalqı maarifləndirən əsərlər yazırdı və onun da yaradıcılığının böyük bir qolunu istiqlal şeirləri təşkil edirdi:

Qaşın kimi qələmimişkbarə and olsun,
O lövhi-hüsndə xətti əyyarə and olsun.
Nə zar olubdu dilim cövri-müstəbidərdən,
Düşübdü bəstərə cismi-nəzarə and olsun.
Kəmalın olmasa, açmaz cəmali-hüriyyət,
Kəmalı-Həzrəti-Pərvərdigara and olsun.
Urulsa-tiri-cəfa, üzmərəm vətəndən əlim,
Vətən yolunda dili-dağdarə and olsun.
Ənusi-münisin olmuş vətən və hüriyyət,
Olarladır dirilik həşri-çarə and olsun.
Vətəndi rövzeyi-rizvan, vətəndi huriyi-qılman,
Vətən çölündə təni-laləzarə and olsun.
Vətənpərəst kibi bir Seydiyi-fələkzadəyəm,
Vətən yolunda çəkən ah-zarə and olsun.
[6.,s.43-44]

"Məcməüş-şüəra"nın iştirakçılarının hamısı təbii ki, füyüzatçı mətbuat orqanlarının ictimai-siyasi mövqeyi ədəbi məktəbi təmsil edən orqanları "İrşad", "Təzə həyat", "Yeni həyat" "Yeni füyuzat", "Tərəqqi", "Həqiqət", "İttifaq", "Şəlalə", "Dirilik", "İqbal", "Açıq söz", "Bəsirət", "Qurtuluş" və s. də iştirak etmirdilər, lakin onlar məslək, əqidədcə xalqı rus istilasından, erməni zəhərindən xilas eləyib İslam-türk bayrağı altında birləşdirmək istəyən böyük mütəfəkkir, tənqidçi, yazıçı, publisist, şair, rəssam, ictimai və siyasi xadim Əlibəy Hüseynzadə ilə bir idilər və yuxarıda qeyd edildiyi kimi çox gözəl anlayırdılar ki, xalqı yalnız İslam ehkamlarını, İslam dəyərlərini, İslam əxlaqını əziz tutmaq, yeddi-arxa dönənini tanımaq irəli apara bilər. Odur ki, yaradıcılığlarının böyük bir hissəsini məhz bu mövzuya aid edirdilər. Bu səbəbdən də yuxarıda deyildiyi kimi türkçülük ideyalarının təbliği də ön planda idi və Bakı şairləri türkçülüyü bədii nidalarla əlvan naxışlarla lövhələndirirdilər.

1999-cu ildə Bakının Novxanı kəndində doğulub böyümüş, Məhəmməd Əmin Rəsulzadənin doğma əmisi qızı, şair Seyid Hüseynin ömür-gün yoldaşı Ümgülsüm bir sıra şeirlərində türkün bayrağını necə əziz tutduğunu, eyni zamanda Avropadan, Rusiyadan axan zəhərləri dəf edəcək qədər qüdrətli olduğunu, Turan dünyasının boğazına dolaşan dəmir çəmbəri polad iradəsilə qıra biləcəyini xüsusi bir ahənglə, insanı ehtizaza gətirən, ayağa qalxızan bir şövq ilə nidalandırır:

*(Davamı var)*

**Səbinə Əhmədova**
***Əlyazmalar İnstitutu Farsdilli əlyazmalar şöbəsi filologiya üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi***
***ehmedova3@mail.ru***